



# Heydər Əliyev irsinə böyük ehtiram

Siyəzəndə Heydər Əliyevin adını daşıyan mərkəz 2013-cü ildən fəaliyyət göstərir. Mərkəzdə eksponatların sayı 500-ə yaxındır. Birinci mərtəbədə Heydər Əliyevin həyat və fəaliyyətini, Azərbaycana rəhbərlik etdiyi illəri, ölkəmizin müxtəlif bölgələrinə, o cümlədən Siyəzənə səfərləri, rayon ictimaiyyəti ilə görüşlərini əks etdirən fotoguşələr yer alıb. Monitorda Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş filmlər nümayiş olunur. Ümummilli liderin irsinin gənc nəsillərə çatdırılması və tədbirlərin keçirilməsi üçün mərkəzdə tədris sinifləri, 200 nəfərlik konfrans zalı, kitabxana da fəaliyyət göstərir.

Mərkəzin direktoru R.Seyidova bildirdi ki, burada kompüter, əl ilə toxuma, "Gənc Heydərçilər" rəsm dərnəkləri fəaliyyət göstərir. Milli Qurtuluş Gününə, 20 Yanvar, Xocalı soyqırımına, konstitusiyaya, ulu öndərin doğum gününə aid dərslər keçirilir. Dərslərdə həmin tarixlərə aid videoçarxlar, eləcə də rayonun ictimai həyatında fərqlənən insanların çıxışları maraqla qarşılanır.

Mərkəzdə qədim alətlər, milli geyimlər, xalça-palaz, ev əşyaları da nümayiş etdirilir. Bura rayona gələn qonaqların ziyarət məkanına çevrilib. Pribaltika, Polşa, Rusiya, Belarus və digər ölkələrdən gəlmiş nümayəndə heyətləri buradan xoş təəssüratla ayrılırlar. Qonaqların bir çoxu mərkəzin xatirə kitabına öz ürək sözlərini də yazıblar. Xarici qonaqlar nəzərə alınaraq filmlərin kataloqu müxtəlif dillərdə əldə edilib.

Mərkəzdə Siyəzən Rayon İcra Hakimiyyətinin, YAP rayon təşkilatının, ictimai qurumların təşkil etdiyi elmi-praktik konfranslar, görüşlər, "dəyirmi masa"lar, sərgilər də keçirilir. Siyəzənli gənclər arasında bir ənənə də yaşamaqdadır. Onların bir çoxu ailə qurarkən nikah mərasimlərinin burada keçirilməsinə qərar veriblər. Burada keçirilən nikah mərasimində bəylə gəlinə hədiyyələr verilir.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***







